GÖZƏLLİK NƏĞMƏKARI VƏ NƏZƏRİYYƏÇİSİ

Yazın əvvəlində Gəncə çölündə,
Çıxıblar yenə də dizə lalələr.
Yağışdan islanan yarpaqlarını,
Səriblər dərəyə, düzə lalələr...

Uzun illərdir ki, dillərdən düşməyən "Lalələr"in Azərbaycanımızın əsrarəngiz təbiətinin füsunkar bir şəklini, bir məqamını şair qəlbinin incə duyğuları ilə canlandıran bu mahnının sözlərini əzbərdən bilməyən az adam tapılar. Qəribədir, bəzən yaradıcı insanın adını çoxsaylı əsərlərindən biri, hətta onlardan ən sadəsi, həcmcə ən kiçiyi, elə Aslan Aslanovun altı beytdən ibarət "Lalələr" şeiri kimi, daha çox məşhurlaşdırır. Zənnimizcə, xalq arasında şair Aslan Aslanov alim Aslan Aslanovdan daha çox tanınır. Şeir həvəskarları onun "Səni düşünürəm" (1958), "Qızlar və bənövşələr" (1961), "Nəğməli günlərim" (1988) kitablarında toplanmış poetik əsərlərindən və tərcümələrindən xəbərdardırlar. Lakin o, təkcə gözəlliyi duyub sözün əlvan rənglərilə ifadə edən şair deyildi, həm də görkəmli filosof, yaradıcılığın, şeirin, sənətin, mahiyyət və formalarını gözəllik qanunları əsasında öyrənən estetika elminin dərin bilicisi, estetika tarixçisi və nəzəriyyəçisi idi. Ömür vəfa etsəydi, bu il 90 yaşı tamam olacaqdı...

Aslan Aslanov 1926-cı il avqustun 20-də Azərbaycanın qərbində, Böyük Qafqaz dağlarının ətəklərində yerləşən Ağstafa rayonunda doğulub, boyabaşa çatmışdır. Şeirə, sənətə vurğunluğu ailəsindən gəlirdi. Deyirlər, el sənətini sevən, ona hədsiz dərəcədə bağlı olan atası Məmməd kişi və anası Zeynəb xanım evlərində tez-tez aşıq məclisləri düzənləyərmiş. Sazla sözün yaratdığı mədəni mühit kiçik yaşlarından Aslanın gözəllik duyğularını xalq ruhu ilə qidalandırmış, bədii zövqünü formalaşdırmış, onu yaradıcılığa həvəsləndirmişdir.

Ona uşaqlıqdan aşılanmış gözəllik duyğusu zaman-zaman daha da zənginləşib dərinləşmişdir. ADU-nun tarix fakültəsi nəzdindəki fəlsəfə şöbəsinin ilk buraxılışının məzunu olan A.Aslanov fəlsəfə kafedrasında müəllim kimi fəaliyyətə başlayıb, elm və təhsil sahəsində inamla irəliləyərək Azərbaycan EA-nın həqiqi üzvü kimi yüksək ada layiq görülmüş elmi-ədəbi yaradıcılığı, bədii axtarışları, tərcümələri hər zaman estetik düşüncələri ilə sıx bağlı olmuşdur. O, ADU-nun estetika və etika kafedrasının müdiri (1961-1980), M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977-1987) vəzifələrində çalışmışdır. 1987-ci ildən, yəni ömrünün sonuna – 1995-ci ilə qədər Fəlsəfə və Hüquq İnstitutunun direktoru olduğu dövrdə estetik fikrin tarixi və nəzəriyyəsi sahəsində elmi araşdırmalarına ara verməmişdir.

1987-ci ildə işıq üzü görən "Estetika aləmində" adlı sanballı kitabı alimin elmi yaradıcılığının özünəməxsus yekunu kimi onun irsində xüsusi yer tutur. Buraya filosofun müxtəlif illərdə ölkə daxilində və xarici mətbuatda dərc edilən məqalələri, estetika üzrə beynəlxalq konqreslərdə etdiyi məruzələrin mətnləri, həmçinin həmin dövr üçün yeni əsərləri daxil edilmişdir. Maraqlıdır ki, estetikanın intəhasız problemləri olduğu, barəsində yüzlərlə əsərin yazıldığı və hələ yazılacağı halda, kitabını belə adlandırmasına kimlərinsə skeptik yanaşa biləcəyindən o, kitabın "Müəllifdən" başlıqlı giriş hissəsində bu barədə öz mülahizələrini oxucu ilə bölüşür. Bildirir ki, "kainatdakı bütün ulduzların, yer üzündəki bütün çiçəklərin idrakını öhdələrinə götürməyin ağıllarına gəlməməsi astronomun "kosmik dünyada", botanikin "çiçəklər aləmində" ifadələrini işlətmələrinə mane olmadığı kimi, estetikin də "estetika aləmində" deməyə tam ixtiyarı çatır.

Kitabda müəllifin öz təbiri ilə desək, "estetik-tarixi-nəzəri oçerklər" tamamilə düşünülmüş metodologiyaya söykənir. Dünya mədəniyyətinin, onun qanunauyğunluqlarının dərkində ümumi ilə təkcənin, xüsusi ilə konkretin, tipologiya ilə konkretliyin dialektikasından çıxış edən prinsip və üsulları o, "marksist estetikanın metodoloji əsasları" kimi təqdim edib də, onların ümumilikdə hər bir elmin təməlində durduğunu qeyd etməyi unutmur. A.Aslanovun fikrincə, estetik fikrin təkamülü və inkişafı prosesində konkreti təmsil edən hər bir mərhələnin aid olduğu dövrə və xalqa xas olan sənət və bədii zövqü, gözəllik haqqında təsəvvür və baxışları, incəsənətə münasibəti ilə bağlı özəllikləri vardır. Odur ki, onların ayrı-ayrılıqda öyrənilməsi önəmlidir. Həm də ona görə ki, özündən sonrakı nəzəriyyələrə təsirini izləməyə imkan verir. Digər tərəfdən, estetik fikir tarixinin tədqiqində Şərq və Qərb estetikalarının qarşılıqlı əlaqə və təsiri konteksti daim nəzərə alınmalıdır. Alim kitabdakı qədim Şərq, qədim yunan, Roma estetik fikrinə, Orta əsrlər Avropa, orta əsrlər Şərq, İntibah dövrü estetikasına, Azərbaycanda estetik fikir tarixinə, Lüdviq Feyerbaxın, M.F.Axundovun estetik görüşlərinə həsr edilmiş tədqiqatları ilə yanaşı, Şərq və Qərb estetikalarının komparativ təhlilini əks etdirən məqalələri ilə hər iki prinsipə sadiq qaldığını nümayiş etdirir.

Bu məqalələri oxuduqca, müəllifin estetika sahəsində erudisiyasının genişliyinin, əldə etdiyi bilgilərə sərbəst yanaşıb, daima müstəqil və obyektiv fikir söyləmək cəhdinin, müqayisəli tənqidi təhlillərinin şahidi olursan. Onlarda estetik fikrə münasibətdə hər cür ifratçılığın yolverilməz olduğu qənaəti xüsusilə qabarıq çatdırılır, bir çox "izm"lər bu baxımdan tənqidə tuş gəlir. Avropasentrizm - Qərb və Şərq arasında keçilməz səddi qaldırıb, Şərq estetik nəzəriyyələrinin, incəsənətinin idraki, mədəni və bəşəri-tərbiyəvi əhəmiyyətini inkar etmək cəhdləri ilə, milli nihilizm - xalqının intellektual qüvvəsinə şübhə edib milli mədəniyyətin nailiyyətlərini danması ilə Aslan Aslanovun əsas tənqid hədəflərindəndir. O, eyni zamanda Şərq mədəniyyətini tamamilə müstəqil, heç bir yad təsirə məruz qalmayan mədəniyyət kimi, həm də onun orta əsrlər çağını (Müsəlman Şərqi timsalında) idealizə edərək bütünlüklə Qərb mədəniyyətinə qarşı qoyan "şərqsentrizm", hind filosofu P.R.Damle kimi "bütün bəşəriyyət üçün bir mədəniyyət və bir dünyagörüşü var", deyə Qərbin və Şərqin özünəməxsus, orijinal mədəniyyətlərinin mövcudluğunu inkar edən "sinkretizm" tərəfdarlarının fikirlərini də yanlış hesab edir.

Aslan Aslanovun tənqidi Sovet elmi ədəbiyyatından da yan keçmir. O, Sovet hegelşünaslığında dahi alman filosofunun irsinin dərindən araşdırılmadığının nəticəsi olaraq onun Şərqə qeyd-şərtsiz mənfi münasibət bəsləməsi fikrinin aşılanmasının təhlükəli olduğuna diqqəti cəlb edir. Axı belə yanaşma "dünya fəlsəfi fikir tarixində nüfuzlu bir şəxsiyyət"i, "böyük dialektik təfəkkür sahibi olan bir filosof"u estetika tarixində avropasentrizmin ən böyük tərəfdarlarından birinə çevirib, cəbhəsini möhkəmləndirir, necə deyərlər, düşmən dəyirmanına su tökür. O, həmçinin sovet fəlsəfə elmində Orta və Yaxın Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının estetik fikir tarixinin tədqiqinə etinasız, biganə münasibəti pisləyir və kitaba daxil etdiyi bəzi məqalələri ilə bu sahədə mövcud boşluğu aradan qaldırmağa çalışır.

"Estetika aləmində" kitabı (xüsusilə "Şərq və Qərb estetika tarixinin öyrənilməsinin bəzi məsələləri", "Müasir Qərb və Şərq burjua estetika nəzəriyyələrində incəsənət və cəmiyyət problemi" oçerklərində) keçən əsrin 60-80-ci illərinin ümumdünya estetik fikri, onun durumu, problemləri, tədqiqatları haqqında xeyli geniş təsəvvür yaratmaq mənasında da öz adını doğruldur. Estetika üzrə əsas mövzusu "İncəsənət və cəmiyyət" olan VI (İsveç, 1969-cu il), "Estetika və incəsənət bugünkü həyatda" başlığı altında keçirilən VII (Rumıniya,1972-ci il) beynəlxalq konqreslərdə dünyanın hər yerindən - ABŞ, Meksika, İngiltərə, Fransa, İsveç, Yunanıstan, Çexoslovakiya, Polşa, Rumıniya, SSRİ və bir çox başqa ölkələrdən gəlmiş filosof-estetiklər iştirak etmişdilər. Onların arasında holland estetiki Jan Aller, italyan filosofu Canni Vattimo, fransız Etyen Surio, ABŞ-dan Tomas Monro, yunan Mixelles və bu kimi məşhur simalar vardı. A.Aslanovun həmin sanballı beynəlxalq tədbirlərin bilavasitə iştirakçısı olması ona konqreslərdə hökm sürən atmosferi oxunan məruzələrin, irəli sürülən ideyaların tənqidi təhlilləri vasitəsilə oxucusuna yetərincə dürüst çatdırmasına imkan verir.

Qeyd etmək lazımdır ki, akademik müasirləri olan türk estetiklərinin görüşlərini, öz sözləri ilə desək, "sənətin idraki əhəmiyyəti və tərbiyəvi təsir məsələsi" rakursundan ayrıca tədqiq edir. Melehet Özgün, Cəlal Cümrəli, İsmayıl Tunalı, Fikrət Adil, Güvəmli, Atac, Naci Fethi kimi türk alimləri və sənət nəzəriyyəçilərinin göstərilən problemlə bağlı fikirlərinə işıq salır. O, haqlı olaraq müasir türk estetik fikrinin vahid axın olmayıb, özündə sənət və bədii yaradıcılığa müxtəlif, fərqli yanaşmaları əks etdirdiyini vurğulayır.

Mənim nəzərimdə, tərcümə, bütün başqa özəllikləri ilə yanaşı, həm də yad mədəniyyətdən, ənənədən gələn gözəlliyi dərk etmək, duymaq və öz xalqına çatdırmaq vasitələrindən biridir. Aslan Aslanovun bu sahədə də xidmətləri az deyil. O, dünya estetik fikrinin iki abidəsini rus dilindən azəri türkcəsinə çevirmişdir. Onlardan biri Aristotelin məşhur "Poetika"sıdır (1974) ki, Q.E.Lessinq onu mükəmməlliyi və qüsursuzluğuna görə Evklidin "Elementləri"nə bərabər tuturdu. Digəri isə Deni Didro irsinə müraciət olub, F.Hegel, K.Marks və F.Engelsin yüksək dəyər verdikləri və dialektikanın bariz nümunəsi hesab etdikləri "Ramonun qardaşı oğlu" (1962) əsəridir. Estetik alimimiz bir sıra poetik sənət nümunələrinin, Bayronun məşhur "Şərq poeması"nın (1968), A.Tvardovskinin 1945-ci ildə birinci dərəcəli Stalin mükafatı almış "Vasili Tyorkin. Döyüşçü haqqında kitab"ın tərcüməçisi kimi də tanınır. Böyük Vətən Müharibəsinin şən, şux və nikbin təbiəti, hazırcavablığı ilə insanların qəlbini fəth edən igid əsgərinin macəralarından danışan "Vasili Tyorkin"in tərcüməsi hətta üç dəfə (1955, 1973, 1985) nəşr edilmişdir.

Yaxın günlərdə atamın, yazıçı-publisist Əşrəf Hacıyevin (1932-2001) arxivində zamanın saraltdığı qəzet kəsiklərindəki məqalələrini nəzərdən keçirərkən, "Molodyoj Azerbaydjana" qəzetinin 1956-cı il 9 sentyabr tarixli sayında dərc edilmiş "Döyüşçü haqqında nəğmə" başlıqlı yazısına rast gəldim. Bu, "Vasili Tyorkin" poemasının ilk dəfə Azərbaycan dilində işıq üzü görməsi barədə resenziya idi. Düzü, xeyli təəccübləndim. Atamla akademikin köhnə tanışlar olduğunu bilsəm də, bu tanışlığın mənim hələ dünyada olmadığım uzaq 1956-cı ilə, indi düşünürəm, ola bilsin daha əvvələ gedib çıxdığından xəbərsizdim.

24 yaşlı Əşrəf Hacıyevin 30 yaşlı Aslan Aslanovun tərcüməsi barədə isdedadla yazılmış, təhlil dərinliyi, məzmun bitkinliyi, səmimiliyi ilə seçilən resenziyasını, nə gizlədim, qüssə qarışıq fərəh hissilə oxudum.

Tərcümənin məziyyətlərini göstərmək üçün gənc müəllif əvvəlcə "Vasili Tyorkin" kimi monumental əsərin yüksək bədii dilinin xüsusiyyətlərinə diqqəti cəlb edir, burada xalq danışıq dilindən, müdrik atalar sözləri, məsəllərindən ustalıqla istifadə edilməsinin əsəri zənginləşdirib gücləndirdiyini, obraza böyük təbiilik və həyatilik verdiyini söyləyir. Tərcümənin çətinliyinin poemanın dilinin hədsiz lakonikliyi, "bədii formanın qəlizliyi və orijinallığı", "epitet, metafora, metonimiyaların və s. sırf rus xarakteri" ilə bağlı olduğunu qeyd edərək sözünə davam edir: "A.Aslanov əsas etibarilə bu çətinlikləri aradan qaldırmağa, əsərin məzmun, ruh və üslubunu saxlamağa, Azərbaycan dilində uğurlu dil və poetik ekvivalentlər tapmağa müvəffəq olmuşdur. Tərcümənin dili bədii, ifadəlidir, poema üçün səciyyəvi olan optimist, həyatverici ruhu özünə hopdurmuşdur, onda Aleksandr Tvardovskinin əsərinə xas təravət və təbiilik vardır". Məqalədə tərcüməçinin Azərbaycan dilinin, xalq danışığının ifadə vasitələrindən məharətlə istifadə edərək orijinalın məna və lakonizmini saxlamaqla onun ən çətin yerlərini ustalıqla işlədiyinə misal olaraq uğurlu misralarından misal gətirilir, "hər bir böyük işdə" olub "asanca düzələ bilən" bəzi qüsurlardan da yan keçilmir. Başlıcası isə, tənqidçinin fikrincə, "gənc istedadlı şair Aslan Aslanovun" ciddi işi sayəsində Azərbaycan ədəbiyyatının daha bir ecaskar əsərlə zənginləşməsidir...

Yadıma düşdü ki, "Vasili Tyorkin" atamın kitabxanasında olmalıdır və xeyli axtarışdan sonra çəhrayı üzlü kitabı tapdım. Bu, elə A.Aslanovun 1955-ci ildə nəşr olunmuş həmin tərcüməsi idi. Kitabda atamın mürəkkəb qələmlə etdiyi qeydlər - onun mətn üzərində işinin izləri qalmışdı.

Bəzi səhifələrin kənarında müqayisə üçün orijinaldan götürülmüş misralar, yaxud sözlər qeyd edilmişdir. Ayrı-ayrı bəndlərin, beyt və misraların yanında nida, sual işarələri qoyulmuş, yaxud "gözəldir", "təkrar", "təsiri azalmışdır", "ricət", "həyəcan" və s. sözlər yazılmışdır. Bunların arasında resenziyada istifadə edilməyənləri də vardı. Məsələn, Vasili Tyorkinin alman faşisti ilə təkbətək əlbəyaxa döyüşünün təsvir edildiyi hissədə onun düşmənə ünvanladığı aşağıdakı sözlərinin yanında "əla" yazılmışdı:

- Əclaf, sən kinlisənsə
Mən səndən də kinliyəm,
Əgər sən cinlisənsə,
Mən cinlidən də cinliyəm (4, 83).

Bu, rus xalq danışığını obrazlar səviyyəsində sırf Azərbaycan el danışığına uyğunlaşdıra bilən "əla" tərcüməni oxuyanda eybəcərliyin nə üçün estetik dəyər daşıyıcısı, estetikanın kateqoriyası olduğunu anlayırsan...

Aslan Aslanovun bütün həyatı və yaradıcılığı gözəllik üstündə köklənmişdi; o, şeirləri ilə gözəlliyi nəğməyə çevirir, dünya mədəniyyəti incilərindən tərcümələri ilə yad gözəlliyi öz xalqının malı edir, elmi ilə poeziya, incəsənət və yaradıcılığın gözəllik qanunlarını tədqiq edir və öyrədirdi.

Azərbaycan fəlsəfi fikir tarixində böyük xidmətləri olan akademik Aslan Aslanov elmi, ədəbi-bədii yaradıcılığı, milli poeziyamızın inkişafına verdiyi töhfələri ilə xalqın yaddaşında yaşayır.

ARZU HACIYEVA,
AMEA Fəlsəfə İnstitutunun fəlsəfə və ictimai fikir tarixi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru.